# COP29 komandası vəzifəsini məsuliyyətlə icra edir

Son günlər BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq çərçivəsində müxtəlif tədbirlər həyata keçirilir. Mövzular həm rəngarəng olur, həm də əhəmiyyətli.

Ardıcıl baş tutan tədbirlərdə müzakirə olunan məsələlər əsasən bunlardır: iqlim dəyişikliyinin yaratdığı fəsadların aradan qaldırılmasında Azərbaycanın rolu və prosesə hazırlıqları, aqrar sahənin problemləri, vətəndaş cəmiyyəti özünü bu prosesin hansı pilləsində görür, bilik və bacarığı buna yol verirmi? Ayrı-ayrı platformaların qlobal tədbirlə bağlı töhfələrinin nədən ibarət olması da COP29-un gündəliyindədir.

İqlim dəyişiklikləri bütün dünya üçün kifayət qədər həssas mövzudur. Bu il Azərbaycanda keçiriləcək COP29 "yaşıl enerji"yə keçidin sürətləndirilməsi üçün geniş debat və fəaliyyət platforması olacaq. Noyabrda Bakı dünyanı özünün maraq dairəsinə və diqqət mərkəzinə çəkəcək. Bu tədbir Azərbaycanın beynəlxalq mühitdə çox böyük məsuliyyətidir. İki həftəyə yaxın bir vaxtda tədbir çərçivəsində keçiriləcək nəhəng debatlar içində Azərbaycan gərəkli bir vəzifəni çiyninə götürəcək. Həmin vəzifəyə gedən yol COP-un ölkəmizdə keçiriləcəyi haqqında qərar qəbul olunan gündən başladı və COP komandası formalaşdı. Bu komanda təkcə ev sahibi olmayacaq, həm də danışıqlara rəhbərlik edəcək.

COP29 komandası ardıcıl olaraq Bakıda və regionlarda tədbirlər keçirir. Tədbirlərdə COP29-un əhəmiyyətini özündə əks etdirən mövzular müzakirə edilir, hazırlıqlardan söz açılır, maliyyə məsələləri gündəmə gəlir. İctimaiyyətin diqqətini ətraf mühitin sağlamlaşdırılmasına, yaşıllıqların bərpasına və artırılmasına yönəltməklə yanaşı, ətraf mühitin mühafizəsinə və iqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək məqsədilə keçirilən bu tədbirlərdə müəyyən təklif və təşəbbüslər irəli sürülür. Həmçinin cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən iştirakçılar iqlimlə bağlı mövzuların aktuallığını nəzərə alaraq BMT-nin qlobal tədbirlə bağlı təşəbbüslərini dəstəkləyirlər. Məsələn, BMT-nin Azərbaycanda əsas tərəfdaşlarından biri olan "Pasha Holding"in strategiya məsələləri üzrə nümayəndəsi Teymur Hüseynov "29 İqlim söhbəti: COP29-a gedən yol" adı tədbirdə deyib: "Bu il tədbirin, iqlim mövzusunun aktuallığını nəzərə alaraq, biz öz "stakeholder"lərimiz üçün həm COP, həm də ümumilikdə iqlim çağırışları barədə məlumatlılıq səviyyəsinin artırılması imkanını yaratmaq istədik. Beləcə, BMT Azərbaycan tərəfindən "29 iqlim söhbəti" təşəbbüsü barədə eşidən kimi bu təşəbbüsə qoşulmaq niyyətimizi bildirdik. Təşəbbüs çərçivəsində BMT tərəfindən ümumilikdə 29 tədbir keçiriləcək və bu tədbirlərdən 4-ü "PAŞA Holding"in tərəfdaşlığı ilə baş tutacaq. Bu gün biz bu tədbirlərdən ilkini keçiririk. Çünki müzakirələrə məhz əməkdaşlarımızdan başlamaq istədik".

Qeyd edək ki, BMT-nin qlobal problemlərin həlli missiyasına uyğun olaraq holdinq davamlı inkişafa kömək etmək və iqlim dəyişikliyi probleminin həllinə yönəlmiş səmərəli təşəbbüslərin həyata keçirilməsi məqsədilə strateji tərəfdaşlığa başlayıb. Bu, COP29 çərçivəsində həyata keçirilən tədbirlərin müsbət dəyişikliklərə gətirəcəyinə əminliyin göstəricisidir.




Əslində, iqlim dəyişiklikləri aqrar sektora daha çox təsir edir. Paris Sazişində bu yönümdə vaxtaşırı müzakirələr getdiyi kimi, Azərbaycanda da bənzər tədbirlər həyata keçirilir. Bu gün kənd təsərrüfatı məhsullarının istehsalının səmərəliliyinin artırılması və inkişafı istiqamətində atılan addımlar aqrar sektorun inkişafına səbəb olub. Dünyada torpaqların şoranlaşmasının, su və torpaq resurslarının azalmasının kənd təsərrüfatına ciddi təsir göstərməsi səbəbindən yaranmış çətinliklərin aradan qaldırılmasında müasir texnologiyaların tətbiqi xüsusi önəm kəsb edir. Ölkəmizin kənd təsərrüfatı sahəsinə innovasiyalar çoxdan "ayaq açıb". Ona görə də aqrar sektorda "ağıllı istixana" və "ağıllı bağ"lar qurulub, torpaq və su sensorları, "ağıllı suvarma" sistemləri, aqrodronlar, aqrorobotlar, "dəqiq" əkin texnologiyaları tətbiq edilir.

Bu günlər "İqlim dəyişikliyinə adaptasiya edən torpaq və resurs qoruyucu yeni texnologiyaların nümayişi" mövzusunda keçirilən respublika müşavirəsində kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov iqlim dəyişikliyinin aqrar sahəyə təsirnindən danışarkən deyib: "Bu gün müasir təsərrüfatlar rəqəmsal texnologiyalarla böyük mənfəətlər əldə edirlər. Bu texnologiyalar kənd təsərrüfatı məhsul istehsalçılarına dəqiq əkinçiliyin həyata keçirilməsinə, sudan və gübrədən daha səmərəli istifadə etməyə, rəqabətqabiliyyətli məhsulun istehsalına, eləcə də ətraf ekosistemə mənfi təsirin aradan qaldırılmasına imkan verir".

İqlim dəyişikliyinin istər aqrar sektora, istərsə də sənayeyə vurduğu mənfi təsir COP29-un gündəmindən düşməyən amildir. Bu istiqamətdə baş tutan tədbirlərin çoxuna xarici dövlətlərin nümayəndələri də qatılır. Dünən Bakıda Azərbaycanın COP29-a sədrliyi çərçivəsində keçirilən "İkiillik Şəffaflıq Hesabatının (BTR) hazırlanması üzrə etimad quruculuğu və bacarıqların artırılması" adlı təlim-seminarda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Katibliyi və BMT-nin İnkişaf Proqramının (UNDP) tərəfdaşlığı ilə baş tutan təlim seminarında 50-dən çox ölkənin və bir sıra beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Müzakirələr zamanı BTR-lərın təqdim edilməsinin iqlim sahəsində həyata keçirilən tədbirlərə töhfəsinə diqqət çəkilib və tərəf dövlətlər arasında etimad quruculuğunun inkişafı və bacarıqların artırılmasının təmini məqsədilə COP29 sədri kimi Azərbaycan tərəfindən silsilə tədbirlərin keçiriləcəyi bildirilib.

COP29-un keçiriləcəyi vaxta aylar qalıb. Amma bu istiqamətdə keçirilən tədbirlər deməyə əsas verir ki, o zamana qədər Azərbaycan öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışır. Xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin adıçəkilən seminarda dediyi kimi: "Biz COP29-a evsahibliyi edən ölkə olaraq seçilməkdən qürur duyuruq və bununla bağlı məsuliyyəti dərk edirik. Eyni zamanda iqlim məsələlərinin bir-biri ilə əlaqəli olduğunu anlayırıq və inanırıq ki, qlobal əməkdaşlıq və dialoq vasitəsilə biz kollektiv şəkildə effektiv həll yolları müəyyənləşdirə bilərik".

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 14 may, № 99.- S.8.